

**Rəşad MƏCİD**
**Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in Baş redaktoru**

# Yel qanadlı atların dünyası

***Hikmət Babaoğlunun mənə göndərdiyi əsərini oxumazdan öncə mövzunun nə olduğunu intuitiv hiss etmişdim. İlk vərəqdə "Qara Duman" yazıldığını və orada at şəkillərini görən kimi barmağımı dişlədim, intuisiyamın düzgün çıxdığına əmin oldum. Məsələ burasındadır ki, biz Hikmət Babaoğlu ilə bir neçə dəfə redaktorlarla birlikdə Ağdənizin – Aralıq dənizinin sahilində istirahətdə olmuşuq. Və mən dənizin sahilindəki axşam söhbətlərimizdə Hikmət Babaoğlunun redaktor həmkarlarımıza necə həvəslə, şövqlə atlardan, atların mənşəyindən, növlərindən danışdığını eşitmişəm. Və bu əsərin də Hikmətin atlar haqqında bilgilərinin, məlumatlarının təzahürü, atlara sevgisindən doğan əsər olduğunu təxmin etmişdim və təxminim də doğruldu.***

Hikmət Babaoğlu "Qara Duman" əsərinin başlanğıcında yazır ki, bu kitabı dünyaya göz açdıqları müqəddəs yurd yerləri və munis uşaqlıq xatirələri düşmən əsirliyində olan bütün yurddaşlarımızın acı taleyinə ithaf edir. Bu əsər bir atın yeni qulunun dünyaya gəlməsi ilə başlanır. At balasının dünyaya gözünü açması, ətraf mühitlə, təbiətlə, torpaqla ilk tanışlığı. Suyu, havanı dadması, hiss eləməsi, ildırımın çaxmasına, yağışın, qarın yağmasına qarşı heyrəti əsərdə zəngin çalarlarla təsvir olunub. Amma məzmun təkcə bu deyil. Süjetdən və ithafdan da göründüyü kimi, ötən əsrin, yəqin ki, ikinci yarısında Ermənistan ərazisində yaşayan soydaşlarımızın yaşadıqları obalar, o kəndlərdəki kolxoz həyatının müəyyən təsviri də var. Ancaq çox da gözə çarpmayan bu xətt əsərdə ara-sıra boy verir. Əsas motiv, əsərin başlıca qayəsi və geniş təsvirlər atlarla, atların tarixi ilə bağlıdır. ***Burada at öz qulununa atların mənşəyindən söz açır, külək və ildırımın bütün atların əcdadları olduğunu danışır. Külək kimi sürətlə qaçmaq, ildırım kimi şahə qalxmaq, öz kişnərtisini göy gurultusundan götürmək atlar üçün xarakterik cəhətlərdir. Eyni zamanda, bu əsərin içərisində 12 min il əvvələ aid atlara dair rəvayətlərə istinad olunur. Kopet dağının ətəklərində, Akal vadisində ilk at ilxısı barədə rəvayətə görə, canavarların hücumu nəticəsində atların ulu əcdadlarının ilxısından Kanq və Çapman[1]adlında iki at bir skif ailəsinə pənah gətirir.*** Bu skif ailəsi atları qoruyur. Sonrakı bütün atların da əcdadları bu Kanq və Çapman adlı atlardır ki, bunlar da skif ailəsində böyüdüklərinə görə insana mehr salır, bu instinkti sonrakı nəsillərinə ötürürlər. Hikmət Babaoğlu, yeri gəldikcə, Axaltəkə, Qarabağ, Dilboz atlarının tarixi barədə məlumatlar təqdim edir. Paralel süjetlə atların duyğularını, xasiyyətini açmağa çalışır, bir tərəfdən də kənddə yaşayan insanların atlarla davranışı və oradakı Oktar, Kəngər və Səncər adlı gənclərin atlara münasibəti, onları qoruyub qayğı göstərmələri kontekstində də qarşısında qoyduğu niyyətin, ideyanın açılışına nail olur.

Bir məqamda uşaqlar əsərin qəhrəmanı olan Qara Duman adlı atın quyruğunu kəsirlər. Oktar yoldaşlıq məhkəməsində, komsomol iclasında çıxış edir və bunu eləyənlərin cəzalandırılmasını tələb edir. Amma onlara deyirlər, sovet sistemində və sovet cinayət məcəlləsində belə maddə yoxdur ki, atın quyruğunu kəsənə hansısa cəza verilsin, Oktar yenə də həyəcanla çıxış edərək milli adət-ənənələrin qorunmasından, atın bizim xalqımızın həyatındakı rolundan danışır. Əsərdə ən çox təsvir edilən at – Qara Duman böyüyür və atların, bir növ, liderinə çevrilir. Bu atda hədsiz azadlıq eşqi var. Və bu Qarabağ atı ram olunmaq, öz azadlığını itirmək istəmir. Kolxozda da Qara Dumanın xamını çıxarmağa – başına yüyən keçirməyə, belinə yəhər qoymağa, bir sözlə, onu ram etməyə nə qədər çalışırlarsa, mümkün olmur. 2-3 cəhddən sonra atı ram etməyin mümkünsüzlüyünü görüb bu atı ətliyə – ət kombinatına vermək istəyirlər. Amma at yolda ZİL maşınının üstündən atılıb yoxa çıxır, bir əfsanəyə çevrilir. Onun azadlıq arzusunu boğmaq olmur. Qara Dumanla Gülgün[2] qısraq deyilən dişi atın bir-birinə sevgisi, o atların rəqsi maraqlı epizodlardır. Hikmət Babaoğlu atlarla bağlı çox qədim – gökbörü, çovqan, cirit adlı oyunlarımızı, oyunlar zamanı insanlarla atların münasibətlərini, atların xarakterini və bu mövzuda mifoloji məlumatları qələmə alır. Onun verdiyi təbiət təsvirləri, yaşadığı ərazini tanıtması diqqəti çəkir, əsərdəki obrazlar da çox maraqlı şəkildə təqdim edilir. Yazın gəlişində təbiətin oyanması, təbiətin çiçəklənməsi bir cür təsvir olunursa, payızda artıq tərk edilən bir obanın vəziyyəti özünəməxsus boyalarla verilir: "Durnalar artıq bu obanın üzərindən bir daha köç etmiş, qaranquşlar evlərin eyvanında bala çıxararaq onları uçurtmuş, sığırçınlar hay-küylü dəstələri ilə çəkilib getmiş, leyləklərin elektrik dirəkləri üzərində qurduqları çöp yuvalar boş qalmışdı. Otlar, zəmi yerləri ucsuz-bucaqsız səhra kimi sarala qalmış, dağ çayları qurumuşdu. Sanki bütün bunlardan kədərlənən təbiət qaş-qabaqlı, olmuş, günəş də bu cansıxıcı mənzərədən bezərək öz ilıq şüalarını buludların arxasında gizlətmişdi. Beləcə bu obaya payız qədəm qoymuş, yazdakı coşqunluq və nəşədən əsər-əlamət qalmamışdı.

***Müəllif azadlıq istəyən Qara Dumanın ilxının liderinə çevrilməsini də incəliklə təsvir edir: "Qara Duman ilxıya bir az qalmış bütün ilxının görə biləcəyi nisbətən yüksək bir yerdən uzun və yaraşıqlı boynunu dik tutaraq ucadan kişnədi... Sanki göy guruladı. Bütün ilxı bu hayqırışın nə demək olduğunu yaxşıca başa düşürdü. Ən yaxşı isə liderliyə iddialı olan ayğırlar bunu başa düşürdü. Kim bilir, onların hansına hakimiyyətini belə elan etmək hayqırışı nəsib olacaqdı. Kişnəmək, məhz bu cür hakimiyyətini elan etmək üçün kişnəmək hər ata nəsib olan xoşbəxtlik deyildi.*** Bircə dəfə, yalnız bircə dəfə belə kişnəmək üçün nə qədər cüssəli, güclü ayğırlar həyatlarını vermiş, şikəst olmuş, yabıya və qoşqu atına çevrilmişdilər. Bu kişnərti qələbə kişnərtisi idi. Bu kişnərti səsi dağlarda əks-səda verməklə ta ulu əcdad Kanqın da qulağına çatacaq, ondan təsdiq və təqdir alacaq bir kişnərti idi. Bu an Qara Dumana elə gəlirdi ki, ululları Kanq və Çapman göydən onu seyr edir, onunla qürur duyurlar. Qəlbinə sonsuz nəşə doldu. Başını dik yuxarı qaldıraraq bu dəfə sonsuz göylərə baxaraq kişnədi".

Əsərdə kənddəki hadisələr, Oktarın atlarla münasibəti, Göydəmir atı çapıb oyunlarda qələbə çalması, sonra Qara Dumanın quyruğunu kəsənin tapılıb cazalandırılmasını tələb etməsi, Qara Dumanı ram etmək istəyənlərə qarşı mübarizə aparması kontekstində onun sinif yoldaşı Selcanla uzaqdan-uzağa sevgi münasibətləri də xoş dillə təsvir olunub. Bəzi məqamlarda Qara Duman və Gülgün qısraq adlı iki atın münasibəti ilə həmin gənclərin sevgi münasibətlərində paralellər nəzərə çarpır.

Və sonda hadisələr Sovet İttifaqının dağılması ərəfəsində baş verir: soydaşlarımızı Ermənistan ərazisindən qovurlar, Bakıda milli mübarizə və müstəqillik hərəkatı başlayır. Oktar, Kəngər və Səncər də kənddən Bakıya gələrək 20 Yanvar hadisələrində müstəqillik uğrunda mücadilə edirlər, tez-tez Qara Dumanı və o atın öz azadlığı uğrunda necə mübarizə apardığını, çərçivələrə boyun əymədiyini xatırlayırlar. Atın azadlıqsevərliyini özləri üçün, bir növ, ideal kimi müəyyənləşdirirlər. Müstəqillik uğrunda mübarizədə Kəngər və Səncər həlak olur, Oktar isə ağır yaralanır və onun sifəti tamam dəyişilir. Və o, bu sifətlə Selcanın gözünə görünmək istəmir. Nəhayət, onların arzuları, milli azadlıq ideyası həyata keçir və xalq azadlığa qovuşur.

Bir cəhəti qeyd edim ki, əsərin dili bəlkə qədərindən də artıq publisistik dildir. Bu əsər Hikmət Babaoğlunun roman həcmində bədii yazısı kimi, yəqin, ilk yazısıdır. O, daha çox jurnalist, redaktor kimi publisistik dillə yazır. Ancaq buna baxmayaraq, belə üslub heç də əsəri az oxunaqlı etmir, əksinə, ona bir axıcılıq, rəvanlıq gətirir. Bəzi yerlərdə onun sözlərin izahını verməsi xüsusi maraq doğurmaqla oxucuya zəngin məlumatlar verir. Açığı, bir neçə məqamda fikirləşdim ki, bu sanballı, ətraflı məlumatları bədii əsərə sığışdırıb süjet qurmaqdansa, ümumiyyətlə, atlar haqqında publisistik düşüncələr qələmə almaq daha effektli olardı. Çünki həddindən artıq bol informasiyaya malik olması və atların xarakterinə bələdliyi müəllifin atlar haqqında ayrıca elmi-publisistik kitab yazmaq gücündə olduğunu göstərir. Ancaq bütün bunlara baxmayaraq, hər halda mən qələm dostumuzun əsərini çox maraqla oxudum və sonda bu qənaətə gəldim ki, bütün, yuxarıda dediyim fikirlərlə yanaşı bu əsər olduqca dolğun məzmunlu, bədii təsvir baxımından kifayət qədər zəngin, tarixi məlumatlılıq baxımından nadir hesab ediləcək qədər yeni, estetik baxımdan millidir. Odur ki, kitabın oxucularda da maraq doğuracağına inanır və müəllifə yeni uğurlar arzulayıram. Sonra öyrəndim ki, Hikmət Babaoğlu atlarla bağlı ayrıca tədqiqat əsəri də yazıb və bu məni çox sevindirdi.

***Hesab edirəm ki, Hikmət Babaoğlu vacib, lazımlı bir mövzunu həm də çox şövqlə qələmə alıb. Onun tariximizə, soykökümüzə hədsiz sevgisi, bu sevgidən qaynaqlanan daha çox bilgi əldə etmək istəyi və bunu bölüşmək niyyəti çox təqdirəlayiqdir. Və inanıram ki, Hikmət Babaoğlu bu axtarışlarını davam etdirəcək və biz onun yeni kitablarını da belə maraqla oxuyacağıq.***




***Bu əsər bir atın yeni qulunun dünyaya gəlməsi ilə başlanır. At balasının dünyaya gözünü açması, ətraf mühitlə, təbiətlə, torpaqla ilk tanışlığı. Suyu, havanı dadması, hiss eləməsi, ildırımın çaxmasına, yağışın, qarın yağmasına qarşı heyrəti əsərdə zəngin çalarlarla təsvir olunub. Amma məzmun təkcə bu deyil. Süjetdən və ithafdan da göründüyü kimi, ötən əsrin, yəqin ki, ikinci yarısında Ermənistan ərazisində yaşayan soydaşlarımızın yaşadıqları obalar, o kəndlərdəki kolxoz həyatının müəyyən təsviri də var***